Uşaqlar üçün Müqəddəs Kitab
təqdim edir



# Allah İbrahimin sevgisini sınayır

Müəllif: Edward Hughes

İllüstrasiya edən: Byron Unger; Lazarus
Alastair P.
Uyğunlaşdıran: M. Maillot; Tammy S.

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2020 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın
surətini çıxarda bilmək hüququna maliksiniz.


Bir gecə Allah İbrahimə qəribə bir əmr verdi. Bu, İbrahimin İshaqı Allahdan daha çox sevdiyini yoxlamaq üçün
bir sınaq idi.


“Oğlun İshaqı götür və onu yandırma qurbanı kimi təqdim et”, Allah əmr etdi.
İshaqı qurban etmək?


Öz oğlunu qurban etmək?
Bu, İbrahim üçün
çətin idi.  O, öz
oğlunu çox
sevirdi.


Lakin İbrahim hətta başa düşməsə də, Allaha etibar etməyi öyrənmişdi. Səhər o, qurban gətirmək üçün İshaq və iki nökəri ilə yola düşdü.


Yola düşməzdən əvvəl İbrahim yandırma qurbanı gətirmək üçün odunları doğradı. İbrahim niyyətində Allaha itaət etməyi tutmuşdu.


Üç gündən sonra onlar dağa yaxınlaşdılar. İbrahim öz nökərlərinə
dedi: “Burada qalın”.


“Biz gedib səcdə edəcəyik və sonra sizin yanınıza qayıdacağıq”.
İshaq odunları daşıyırdı;
İbrahim od və bıçağı daşıyırdı.


İshaq sourşdu: “Od və
odun var, bəs yandırma
qurbanı olacaq
quzu haradadır?”


İbrahim dedi: “Oğlum, yandırma qurbanı olacaq quzunu Allah Özü hazırlayacaq”.

İkisi də Allah göstərdiyi yerə gəlib çıxdılar. Orada İbrahim qurbangah düzəltdi və Allah qarşısında yandırma qurbanı gətirmək üçün odunları düzdü.



İbrahim çox qurbangahlar düzəltmişdi.  Sözsüz ki, bu, onun düzəltdiyi ən çətin qurbangah idi.



İbrahim İshaqın əl-qolunu bağladı və öz sevimli oğlunu qurbangaha, odunların üstünə qoydu. İbrahim həqiqətən Allaha itaət edəcək və öz sevimli, yeganə



oğlu İshaqı qurban verəcəkmi?



Bəli!
İbrahim bıçağı yuxarı qaldırdıqca, bıçağın ülgücü parıldayırdı.
Onun ürəyi yəqin ki, qırılırdı, lakin İbrahim Allaha itaət etməli olduğunu bilirdi.



“DAYAN!”
Rəbbin
mələyi
ucadan
səsləndi.


“İndi bildim ki, sən Allahdan qorxursan. Öz yeganə oğlunu Məndən əsirgəmədin”.



Kolluqda bir qoç görərək, İbrahim İshaqın əl-qolunu açdı və əvəzində qoçu qurban gətirdi.

Ola bilsin ki, İshaq fikirləşdi: “Atam dediyi kimi, Allah həqiqətən təmin etdi”.



Ata və oğul səcdə edərkən, Rəbbin mələyi İbrahimə danışdı: “Dünyanın bütün millətləri sənin nəslin vasitəsilə xeyir-dua alacaq, çünki sən Mənim sözümə qulaq asdın”.



Bir gün gələcək və İsa İbrahimin nəsli vasitəsilə doğulacaq.



İbrahim və İshaq evə qayıtdılar. Bir müddətdən sonra kədər gəldi. Sara öldü. İbrahim öz arvadını, İshaq isə öz anasını itirdi.



Yasdan sonra
İbrahim baş
nökərini İshaqa arvad
axtarmaq üçün göndərdi.



Nökər İbrahimin qohumları arasında arvad tapmaq üçün onların ölkəsinə getdi.



Nökər Allahdan bir əlamət istədi: “Qoy dəvələrə su təklif edən qız İshaq üçün təyin etdiyin qız olsun”.



Elə həmin vaxtda Rivqa onlara su içməyi təklif etdi. O, İbrahimin qohumlarından biri idi. Nökər Allahın onun duasına cavab verdiyini bildi.



Rivqa İshaq ilə evlənmək üçün öz ailəsini tərk etdi. O, İshaqın anası öləndən sonra ona təsəlli verdi.



Allah İbrahimin sevgisini sınayır

Allahın Sözü, Müqəddəs Kitabdan olan bir hekayədir

Yaradılış 22-24

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**